38 (1293) 28 sentyabr - 4 oktyabr 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymətı razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# 27 SENTYABR ANIM GÜNÜDÜR

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 27 sentyabr - Anım Günü ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib. Paylaşımda “27 sentyabr - Anım Günü” sözləri yazılıb.




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında 27 sentyabr - Anım Günü ilə əlaqədar paylaşım edib. Paylaşımda deyilir: **“Vətən uğrunda həlak olmuş qəhrəmanlarımızın əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır! Allah bütün şəhidlərimizə rəhmət eləsin!”**

## ŞƏHİDLƏRİMİZİN ƏZİZ XATİRƏSİNİN ƏBƏDİLƏŞDİRİLMƏSİ MƏQSƏDİLƏ BAKIDA ZƏFƏR PARKININ İNŞASI DAVAM ETDİRİLİR




Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Ötən müddətdə Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihəsi hazırlanıb. Layihəyə əsasən, torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə kompleksin ərazisində muzeyin yaradılması nəzərdə tutulur. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin işğaldan azad olunması uğrunda mübarizə aparan əsgər və zabitlərimizin igidliyini, xalqımızın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

## “BU GÜN AZƏRBAYCAN-TÜRKİYƏ ƏLAQƏLƏRİ ƏN YÜKSƏK ZİRVƏDƏDİR”

“İki il bundan əvvəl uzun zaman davam edən işğaldan sonra azad edilmiş Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi - müttəfiqlik bəyannaməsi bizim münasibətlərimizi yeni müstəviyə qaldırdı”.

Bunu Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 25-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında deyib.

**Dövlətimizin başçısı qeyd edib:** “Bu gün bu əlaqələr ən yüksək zirvədədir və biz indi bütün istiqamətlər üzrə əlaqələrimizin çox fəal dövrünü yaşayırıq.

Bizim bütün istiqamətlər üzrə, o cümlədən ticarət dövriyyəmizin artırılması istiqamətində önəmli addımlar atılmışdır. Keçən il bizim ticarət dövriyyəmiz 6 milyard dollardan çox olub”.

Bu ilin yeddi ayında ticarət dövriyyəsinin daha 40 faiz artdığını və daha da artacağına əminliyini ifadə edən dövlətimizin başçısı bildirib: *“Düzdür, hədəf çox, yəni, yüksək rəqəmlərlə ölçülür. Bir müddət bundan əvvəl 15 milyard dollar ticarət dövriyyəsi hədəfləmişdik. O zaman ticarət dövriyyəsi təqribən 2 milyard dollar idi. Amma indi 6 milyard dolları ötüb. Yaqin ki, yaxın gələcəkdə buna da çatacağıq”.*

## “ERMƏNİSTANIN NAXÇIVANA QARŞI ƏRAZİ İDDİALARI VAR İDİ”

“Naxçıvan Azərbaycanın qədim diyarıdır. Əfsuslar olsun ki, 1920-ci ildə sovet hakimiyyəti tərəfindən Qərbi Zəngəzur Azərbaycandan ayrılmışdır və beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında coğrafi bağlantı kəsilmişdir”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 25-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında deyib.

Dövlətimizin başçısı bildirib: *“Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini aparmağa başlayanda Naxçıvana qarşı da onların ərazi iddiaları var idi, burada da şiddətli döyüşlər gedirdi. Və məhz o vaxt Azərbaycanın böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə , - o zaman o, Naxçıvanın başçısı idi, - Naxçıvan düşməni yerinə oturtdu və öz ərazisini qoruya bilmişdir”.*

## “İĞDIR-NAXÇIVAN QAZ KƏMƏRİNİN ÇƏKİLİŞİ ƏLAQƏLƏRİMİZƏ YENİ TƏKAN VERƏCƏK”



“Naxçıvana səfər zamanı imzalanmış sənədlər Türkiyə-Azərbaycan əlaqələrinin inkişafına xidmət göstərəcək. İğdır-Naxçıvan qaz kəmərinin çəkilişi qardaşlıq münasibətlərimizin tarixində önəmli hadisədir və bizim əlaqələrimizə yeni təkan verəcək, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə təmin edəcək”.

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 25-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında deyib.

## “QARABAĞ BÖLGƏSİNDƏ YAŞAYAN İNSANLAR MİLLİ MƏNSUBİYYƏTİNDƏN ASILI OLMAYARAQ AZƏRBAYCAN VƏTƏNDAŞLARIDIR”

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 25-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında bildirib.

Dövlətimizin başçısı deyib ki, onların təhlükəsizliyi, güvənliyi, hüquqları Azərbaycan dövləti tərəfindən təmin ediləcək.

Bir neçə gün bundan əvvəl Qarabağ ermənilərinin nümayəndələri ilə Azərbaycan dövlət strukturlarının nümayəndələri arasında Yevlax şəhərində görüş keçirilmişdir. Bu gün ikinci görüş keçirilir.

Dövlətimizin başçısı Qarabağda yaşayan erməni əhalisinin Azərbaycan cəmiyyətinə inteqrasiya prosesinin uğurla gedəcəyinə əminliyini ifadə edib.

## “QARS-NAXÇIVAN DƏMİR YOLUNUN İNŞASINA DAİR NİYYƏT PROTOKOLUNUN İMZALANMASI TARİXİ HADİSƏDİR”

“Vaxtilə biz Sizinlə (Ərdoğan – red.) TANAP layihəsinin təməlini qoymuşduq, TANAP boru xəttinin açılışı ilə bərabər etmişdik. Bu gün isə Türkiyədən Azərbaycanın parçası olan Naxçıvana qaz kəmərinin inşası ilə bağlı işlərə start veririk”.

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 25-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında bildirib.

**“Qars-Naxçıvan dəmir yolunun inşasına dair niyyət protokolunun imzalanması da tarixi hadisədir. Əminəm ki, bu layihə də uğurla həyata keçiriləcək və beləliklə, Orta Dəhlizin bir qolu kimi həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə xidmət göstərəcək”, -** deyə dövlətimizin başçısı əlavə edib.

# “Türkiyə-Azərbaycan əlaqələri dünyada bənzəri olmayan müstəsna səviyyədədir”

“Bir millət, iki dövlət” şüarı çərçivəsində əlaqələrimizi və əməkdaşlığımızı bütün sahələrdə gücləndirmək üçün fəaliyyətimizi davam etdiririk”.
Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyev ilə birgə mətbuata bəyanatında bildirib. “İlham qardaşımla imzaladığımız Şuşa Bəyannaməsi əlaqələrimizi müttəfiqlik səviyyəsinə yüksəldən dönüş nöqtəsidir”, - deyən R.T.Ərdoğan vurğulayıb ki, Naxçıvan tarix boyu daşıdığı strateji əhəmiyyəti ilə Azərbaycanla əlaqələrdə xüsusi yerə sahibdir. **“Naxçıvan bu gün iqtisadiyyat, nəqliyyat və enerji xətləri baxımından böyük potensiala sahibdir. Regional nəqliyyat xətlərinin yaradılması ilə birlikdə bu potensialı tam mənasında həyata keçirmək imkanına malik olacağıq”**, - deyə o əlavə edib.

# “Naxçıvanın əldə etdiyi inkişafı qürurla müşahidə etdim”

“Bu dəfə Sizinlə (Prezident İlham Əliyev – red.) Türkiyəni Türk dünyası ilə birləşdirən Naxçıvanda birlikdə olmaqdan böyük məmnunluq duyuram”.
Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında söyləyib. **“2008-ci ildəki son səfərimdən etibarən Naxçıvanın əldə etdiyi inkişafı qürurla müşahidə etdim. Naxçıvanın bugünkü səviyyəyə çatmasında böyük payı olan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevi anadan olmasının 100-cü ildönümündə bir daha ehtiramla yad edirəm”**, - deyə Türkiyə dövlətinin başçısı bildirib.

# “Zəngəzur dəhlizi strateji xarakter daşıyır və region dövlətlərinin iqtisadi maraqlarına cavab verir”



“Azərbaycanın həyata keçirdiyi uğurlu antiterror tədbirlərindən sonra Naxçıvanın həm Azərbaycan, həm də regionun digər dövlətləri ilə avtomobil və dəmir yolu əlaqəsinin yaradılması üçün imkan yaranıb. Bu yolların fəaliyyətə başlaması Türkiyə ilə Azərbaycanın əlaqələrini daha da yaxınlaşdıracaq”.
Bu sözləri Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Naxçıvan səfərini yekunlaşdırıb vətənə qayıdarkən jurnalistlərin suallarına cavabında deyib.
Türkiyə prezidenti nəzərə çatdırıb ki, artıq İrandan Zəngəzur dəhlizinin açılması ilə əlaqədar müsbət siqnallar gəlib: “Bu, strateji dəhlizdir və regionun dövlətlərinin iqtisadi maraqlarına cavab verir. Buna görə də bu dəhlizin fəaliyyətə başlaması üçün lazım olan tədbirləri tez bir zamanda həyata keçirmək lazımdır”. R.T.Ərdoğan bildirib ki, Zəngəzur nəqliyyat dəhlizi sülh və iqtisadi inkişaf dəhlizi olacaq.

# Şarl Mişelin bəyanatı - Qərb yeni reallığı qəbul etdi

Avropa İttifaqı (Aİ) Şurasının prezidenti Şarl Mişelin himayəsi altında onun diplomatik müşavirləri Saymon Mordu və Maqdalena Qrononun Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ilə görüşü olub.
Görüşdə həmçinin Fransa prezidentinin və Almaniya kanslerinin diplomatik müşavirləri Emmanuel Bonne və Yens Plotner, Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar da iştirak ediblər.
Aİ görüş iştirakçılarını Qarabağdakı mövcud vəziyyət və yerli əhalinin təcili ehtiyaclarının ödənilməsinə yönəlmiş müxtəlif səylər barədə fikir mübadiləsi aparmağa dəvət edib.



Hikmət Hacıyev Azərbaycanın Qarabağın erməni sakinlərinə humanitar yardım göstərmək və onların təhlükəsizliyini təmin etmək planlarını açıqlayıb.
Hikmət Hacıyev və Armen Qriqoryan Ermənistan-Azərbaycan sülh prosesini, məsələn, sərhədlərin delimitasiyası, təhlükəsizlik, kommunikasiyalar, humanitar məsələlər və sülh müqavilələri kimi sahələrdə irəliləyiş üçün mümkün konkret addımları müzakirə ediblər.
Aİ-nin bu bəyanatı Azərbaycanın Qarabağda lokal antiterror tədbirləri nəticəsində yaratdığı yeni reallığın dünya ictimaiyyəti tərəfindən qəbul edildiyini göstərir.
Bir daha təsdiqlənib ki, Azərbaycan tərəfindən həyata keçirilən tədbirlər Ermənistanın qanunsuz silahlı birləşmələrinin və onların suveren ərazisindəki hərbi infrastrukturunun zərərsizləşdirilməsinə yönəlib.
Digər mühüm məqam ondan ibarətdir ki, bu bəyanatla əslində Azərbaycanın nəinki dinc əhaliyə zərbə endirmədiyini, əksinə, sakinlərin təhlükəsizliyini təmin etmək üçün üzərinə düşən vəzifələri yerinə yetirdiyini təsdiqlənib.

# Xankəndiyə humanitar yardım karvanı yola salınıb

2023-cü il sentyabrın 21-də Yevlax şəhərində keçirilmiş görüşdə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrinin xahişinə uyğun olaraq, içərisində ümumilikdə 40 ton un, gigiyenik vasitələr və 500 nəfər üçün yataq dəsti olan 4 yük avtomobili, həmçinin Xankəndi şəhəri yaxınlığında yanacaqdoldurma məntəqəsində baş vermiş partlayış nəticəsində yaralanan şəxslərə yardım məqsədilə 200 nəfərin müalicəsi üçün yanığa qarşı tibbi ləvazimatlar, sarğı materialları, əlcəklər, dərman preparatları olan növbəti təcili tibbi yardım maşını sentyabrın 26-da Ağdam-Əsgəran-Xankəndi yolu vasitəsilə yola salınıb.

* * *

Sentyabrın 25-də Azərbaycanın Xankəndi şəhərinin yaxınlığında yanacaqdoldurma məntəqəsində yanğına müşayiət olunan partlayış hadisəsi baş verib.
Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin 15 ədəd xüsusi təyinatlı yanğınsöndürmə avtomobili heyəti ilə birgə yanğının söndürülməsi üçün Ağdam-Əsgəran-Xankəndi yolu ilə Xankəndi şəhərinə yola düşüb. Ehtiyac yaranacağı təqdirdə əlavə qüvvələr də cəlb olunacaq.



# İğdır-Naxçıvan qaz kəməri layihəsi Avropanın da enerji təhlükəsizliyinə töhfə verəcək

“İğdır-Naxçıvan qaz kəməri layihəsi Azərbaycan ilə enerji sahəsində ortaqlığımızı daha da dərinləşdirəcəyi kimi, Avropanın enerji təhlükəsizliyinə də töhfə verəcək”.
Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında söyləyib.
“Qars-Naxçıvan dəmir yolu layihəsi ilə yanaşı, yaşayış binaları və elektrik enerjisi ilə bağlı müqavilələr bir az əvvəl imzalandı. Beləliklə, nəqliyyat, logistika və enerji sahələrindəki əlaqələrimizi inkişaf etdirməklə bağlı iradəmizi bir daha ortaya qoyduq”, - deyə Türkiyə Prezidenti əlavə edib.

# İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın qaza tələbatını tamamilə ödəyəcək



Sentyabrın 25-də İğdır-Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan İğdır-Naxçıvan qaz kəmərinin təməlini qoyublar.
Qeyd edək ki, İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın qaz təchizatının şaxələndirilməsinə imkan verməklə onun bir mənbədən asılılığını aradan qaldırmış olacaq. 2020-ci il dekabrın 15-də Ankarada Azərbaycan və Türkiyə arasında İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumu imzalanıb. Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il 10 fevral tarixli Sərəncamına əsasən isə İğdır-Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə bu il iyunun 5-də qəbul edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın prioritet layihələri sırasında yer alıb.
Boru kəməri gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcək.

# Rusiya XİN Qarabağ ətrafında və Ermənistandakı vəziyyətlə bağlı bəyanatla çıxış edib

***“Rəsmi İrəvanın 2020-ci il noyabrın 9-dan sonra erməni hərbi birləşmələrinin Qarabağda qalmasını inadla inkar etməsi sentyabrda yaranan son gərginliyin əsas səbəblərindən biri olub”.***
Bu barədə Rusiya XİN-in Qarabağ ətrafında və Ermənistandakı vəziyyətlə bağlı bəyanatında bildirilir.
Bəyanatda qeyd olunur ki, Ermənistanın Baş naziri Nikol Paşinyanın sentyabrın 24-də müstəqilliklə bağlı müraciəti “Rusiyanın ünvanına yolverilməz ittihamları ehtiva edir və məsuliyyətdən yayınmaqdan başqa bir şey deyil”. Rusiya XİN hesab edir ki, erməni tərəfi daxili və xarici siyasətdə uğursuzluqlara görə məsuliyyətdən yaxa qurtarmağa və təqsiri Moskvanın üzərinə qoymağa çalışır. Sənəddə deyilir: “Hökumət başçısı məhiyyət etibarilə etiraf etdi ki, bütün bu vaxt ərzində respublikanı şüurlu şəkildə Rusiyadan üz çevirməyə hazırlayıblar. Ermənistanın inkişafının yeni – Qərb vektoruna yönəlmiş addımlara inandırıcı olmayan şəkildə guya Rusiya Federasiyası və KTMT-nin buraxdığı səhvlərlə bəraət qazandırılır. Bu halda unudulur ki, dövlətlərimizin bir çox hallarda təhlükəsizlik və inkişaf məsələlərində oxşar maraqları var, ABŞ və NATO-nun digər ölkələri isə öz qarşılarına təkcə Rusiyaya strateji zərər vurmağı deyil, həm də bizim ortaq Avrasiya məkanında sabitliyi pozmaq məqsədini qoyublar.
Bəyanatda deyilir: “RSK-nin vasitəçiliyi ilə sentyabrın 20-də Ermənistanın qalan birləşmələrinin çıxarılması və ağır texnikanın və silah-sursatın təhvil verilməsi ilə “Dağlıq Qarabağ ordusunun” tam tərk-silah edilməsi üzrə əldə olunmuş razılaşma real mənzərəni göstərdi və dayanıqlı de-eskalasiya üçün şərait yaratdı” .
RF-in xarici siyasət idarəsinin bəyanatında qeyd olunub: “Erməni rəhbərliyinin ardıcıl olmayan siyasəti nəticəsində Rusiya və Azərbaycanla ritmik şəkildə işləmək yerinə, Qərbə tərəf üz tutmağa üstünlük verildi, bununla da 2020-2022-ci illərdə yüksək səviyyədə əldə olunmuş üçtərəfli razılaşmalar kompleksinin həyata keçirilməsi dayandı. Sülh sazişinin razılaşdırılması, sərhədlərin delimitasiyası və regional kommunikasiyaların açılması üzrə ciddi irəliləyiş əldə edilməsinin mümkün olduğu qiymətli vaxt itirildi ki, bunlar da Ermənistan üçün təhlükəsizliyin təmin edilməsində əlavə faktorlar ola bilərdi”.

# Xocalıda Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin nümayəndələri ilə növbəti görüş keçirilib



Sentyabrın 25-də Xocalı şəhərində Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs təyin edilmiş Ramin Məmmədovun Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri ilə növbəti görüşü başa çatıb.
Lokal xarakterli antiterror tədbirlərindən sonra ilk danışıqlar sentyabrın 21-də Yevlax şəhərində keçirilmişdi.
Azərbaycanın mərkəzi hakimiyyətini görüşdə Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilə təmaslar üzrə məsul şəxs təyin edilmiş Ramin Məmmədov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev və xüsusi nümayəndəliyin əməkdaşı İlkin Sultanov təmsil ediblər.

# Qarabağ bölgəsində silah-sursatın müsadirəsi davam edir



Qarabağ bölgəsindəki müxtəlif ərazilərdə Ermənistan silahlı qüvvələri birləşmələrinə məxsus növbəti döyüş texnikası, hərbi avadanlıqlar, həmçinin anbar kimi istifadə edilən mülki tikililərdən silah-sursat müsadirə edilib. Müdafiə Nazirliyindən bildirilib ki, xeyli sayda raket, artilleriya mərmiləri və minalar olan anbarda, həmçinin müxtəlif çaplı döyüş sursatları da aşkarlanıb. Qeyd edək ki, bölgədə silah, sursat və döyüş texnikasının müsadirəsi davam etdirilir.

# Qarabağ bölgəsində hazırkı vəziyyət ətrafında fikir mübadiləsi aparılıb



Sentyabrın 26-da ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon söhbəti zamanı, erməni silahlı qüvvələrinə qarşı antiterror tədbirlərindən sonra Azərbaycanın Qarabağ bölgəsində hazırkı vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı 24 saatdan az müddətdə yekunlaşan antiterror tədbirləri zamanı yalnız hərbi obyektlərin hədəf alındığını, mülki əhaliyə zərər verilmədiyini diqqətə çatdırıb. Hazırda qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah prosesinin həyata keçirildiyi və onların Azərbaycan ərazisindən çıxarılması işinin həyata keçirildiyi ABŞ tərəfinə bildirilib. Son beş gün ərzində yüzlərlə hərbi texnika, silah-sursat və hərbi təchizat mallarının müsadirə edildiyi vurğulanıb.

Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin hərbi nümayəndələrinin və BMT-nin Rezident Əlaqələndirici Ofisinin nümayəndəsinin toplanmış silah və hərbi texnikaya baxış keçirdiyi qeyd olunub.

Prezident İlham Əliyev Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarının ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin edilməsi məqsədilə hazırda müvafiq iş aparıldığını vurğulayıb.

ABŞ dövlət katibi Antoni Blinken yaranmış vəziyyətlə bağlı narahatlığını ifadə edib, bölgədə sabitliyin təmin edilməsinin, yerli ermənilərlə dialoqun vacib olduğunu bildirib.

# Azərbaycan XİN Cozep Borrelin bəyanatını sərt tənqid edib

XİN bildirib ki, Azərbaycana qarşı belə qərəzli yanaşmanın hədələyici bəyanat səviyyəsinə çıxarılması regionumuzda sülhə xələl gətirir.

“Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrelin sentyabrın 21-də regionda baş verən son hadisələrlə bağlı bəyanatı yerlərdəki bütün reallıqları qəsdən təhrif edir və tamamilə qeyri-adekvatdır”.

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda deyilir.

Qeyd olunub ki, bu təşkilat Azərbaycanın suveren ərazilərinin 30 ilə yaxındır davam edən hərbi işğalını, azərbaycanlılara qarşı etnik təmizləmə və bəşəriyyətə qarşı cinayətləri pisləməkdən həmişə çəkinib, 2020-ci il Vətən müharibəsindən sonra Azərbaycanın regionda sülh və sabitliyin bərqərar olması istiqamətində fəaliyyətini heç vaxt təqdir etməyib:

*“Azərbaycana qarşı belə qərəzli yanaşmanın hədələyici bəyanat səviyyəsinə çıxarılması regionumuzda sülhə xələl gətirir. Bir daha xatırladırıq ki, Azərbaycanın öz suveren ərazilərində yerləşdirilmiş qanunsuz erməni hərbi birləşmələrinin məhv edilməsi üzrə qanuni tədbirləri növbəti təxribatların və hücumların qarşısının alınmasına yönəlib və Azərbaycanın terrorizmə qarşı mübarizə tədbirləri ilə bağlı iddialarının erməni əhalisinə qarşı olması hətta Ermənistanın Baş naziri tərəfindən sentyabrın 21-də əhaliyə müraciətində təkzib edilib”.*

# Baş nazir TDT-nin Bakıda keçirilən tədbirlərində iştirak edən nazirlərlə görüşüb



Baş nazir Əli Əsədov Türk Dövlətləri Təşkilatının Bakıda keçirilən 2-ci Kənd Təsərrüfatı Nazirləri Toplantısında və 2-ci Türk Aqro Biznes Forumunda iştirak edən kənd təsərrüfatı nazirləri ilə görüşüb.

Trend xəbər verir ki, baş nazir Bakıda keçirilən 2-ci Kənd Təsərrüfatı Nazirləri Toplantısının və 2-ci Türk Aqro Biznes Forumunun əhəmiyyətini vurğulayıb, bu tədbirlərin türk dövlətləri arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Bildirilib ki, türk dünyası ölkələri ilə əlaqələrin möhkəmləndirilməsi Azərbaycan üçün xarici siyasətin əsas prioritetlərindən biridir.

Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində görülən ardıcıl tədbirlər barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, bu məqsədlə ölkədə aparılan uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatın diversifikasiyasına nail olunub, bütün digər sahələr kimi aqrar sektorun da inkişafı üçün əlverişli şərait yaranıb.

Azərbaycanda aqro-ərzaq sisteminin davamlı transformasiyasının təmin edilməsi istiqamətində yaşıl enerji, rəqəmsallaşma və innovativ həllərin tətbiqi barədə söhbət açılıb. Ölkədə aqroparkların yaradılması prosesinin geniş vüsət aldığı bildirildi, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatının inkişaf potensialı barədə məlumat verildi.

Görüşdə Azərbaycanla Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətləri arasında kənd təsərrüfatı sahəsində həyata keçirilən layihələr, həmçinin, əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

# Moskva Azərbaycan və Türkiyə liderləri arasında görüşün regionda təhlükəsizliyə kömək edəcəyinə ümid edir

“Moskva Azərbaycan Prezidenti İlham Əliyevin keçirdiyi bütün görüşlərin, o cümlədən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşünün regionda təhlükəsizliyə və Qarabağda həyatın normallaşmasına kömək edəcəyinə ümid edir”.

Bu barədə jurnalistlərə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.

Azərbaycan və Türkiyə liderlərinin Naxçıvan görüşündən gözləntilər barədə danışan Kremlin nümayəndəsi deyib: *“Biz hər dəfə ümid edirik ki, Azərbaycan Prezidentinin keçirdiyi görüşlər, o cümlədən Türkiyə Prezidenti ilə görüşü regionda təhlükəsizliyə, baş verən hadisələrdən sonra Qarabağda həyatın normallaşmasına kömək edəcək”.*

Moskvanın da həm Ankara, həm də Bakı ilə sıx əlaqələrini diqqətə çatdıran D.Peskov əlavə edib: *“Onlar suveren ölkələrdir və əməkdaşlığın inkişafına dair öz suveren hüquqlarını həyata keçirir. Biz Bakı ilə Ankara arasında münasibətlərin nə qədər sıx olduğunu bilirik”.*

D.Peskovun sözlərinə görə, Rusiya regionda mövcudluq əlaməti olaraq göstərilmədiyi təqdirdə, Qarabağ üzrə üçüncü tərəflərin vasitəçilik səylərini alqışlayır. Kremlin nümayəndəsi bildirib: *“Başlıcası nizamlanma üzrə vəziyyətə kömək etməkdir. Hər hansı tərəfin boş, vasitəçilik potensialı olmayan, ancaq özünün Qafqazda mövcudluğunu qələmə verən səylərinin qarşısını almaq mühümdür. Bu, çətin ki, vəziyyətə kömək edə bilər”.*

# Xankəndi şəhərinin Azərbaycan enerji sisteminə qoşulması təmin edilib



2023-cü il sentyabrın 21-də Yevlax şəhərində Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələri ilə keçirilmiş görüşdə müzakirə edilən məsələlərin həlli istiqamətində təxirəsalınmaz işlər davam etdirilir.

Azərbaycan Prezidentinin Administrasiyasından AZƏRTAC-a bildirilib ki, növbəti addım olaraq, Xankəndi şəhərinin Ermənistanın enerji sistemindən ayrılaraq Azərbaycan enerji sisteminə qoşulması təmin edilib. Qeyd edək ki, hələ 2021-ci ildə "Azərenerji" tərəfindən tikilən və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə istifadəyə verilən "Şuşa" yarımstansiyasında Xankəndi üçün ehtiyat yuvalar quraşdırılmışdı. 2023-cü il sentyabrın 19-dan etibarən "Azərenerji" tərəfindən "Şuşa" yarımstansiyası yaxınlığında əlavə 110 kV-luq yüksək gərginlikli dayaqların quraşdırılmasına və Xankəndi xətti ilə əlaqələndirilməsi işinə başlanılıb. Aparılan işlər nəticəsində artıq proses yekunlaşıb. Paralel olaraq "Azərenerji" və "Azərişıq" əməkdaşları ötürücü və paylayıcı şəbəkəni, mühafizə sistemlərini təftiş etdikdən sonra xəttə gərginlik verilib. Artıq Xankəndidə Azərbaycan işığı yanır.

# Nazirlər Kabineti gələn ilin büdcə layihəsini bəyənib

2024-cü ilin dövlət büdcəsinin layihəsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin iclasında müzakirə olunaraq bəyənilib. Maliyyə Nazirliyindən bildirilib ki, bu barədə Baş nazir Əli Əsədovun sədrliyi ilə Azərbaycan Respublikasının 2024-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, həmçinin Azərbaycan Respublikasının 2024-cü il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinin müzakirəsinə həsr olunmuş Nazirlər Kabinetinin iclasında qərar qəbul edilib və yekun qərarın əks olunduğu layihələr “Büdcə sistemi haqqında” Qanunun 12-ci maddəsində nəzərdə tutulan digər sənədlərlə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilib.

Qərara əsasən, Maliyyə Nazirliyinin ilkin açıqladığı dövlət büdcəsinin həm gəlirləri, həm də xərcləri 408,0 milyon manat artırılıb və müvafiq olaraq gəlirlər 34173,0, xərclər isə 36763,0 milyon manata çatdırılıb.




# Azad olunan ərazilərdə kənd təsərrüfatına yararlı 128 min hektar torpaq var

“Bizim gələcəyə yönəlmiş əsas hədəfimiz işğaldan azad olunan ərazilərimizi bərpa edərək həmin ərazilərin dəyər zəncirinə inteqrasiyasını təmin etməkdir”. Bunu kənd təsərrüfatı naziri Məcnun Məmmədov II türk dövlətləri Aqrobiznes Forumunda çıxışı zamanı bildirib.

“Azərbaycan 30 il işğal altında olan torpaqlarını azad etdi. Bu qələbə həm də Türk dünyasının qələbəsi olaraq türk birliyinin etno-siyasi coğrafiyasını bərpa etdi. İşğal dövründə həmin ərazilər işğalçılar tərəfindən tamamilə dağıdılaraq yararsız hala salınmışdı. Məscidlər, mədrəsələr, digər tarix-mədəniyyət abidələri və evləri dağıdılmış, ərazilər minalanmışdı. Hazırda həmin ərazilərdə böyük miqyasda bərpa-quruculuq işləri aparılır, minalar təmizlənir, yeni yollar, “ağıllı şəhər”lər və “ağıllı kənd”lər salınır. Həmçinin Prezident İlham Əliyev tərəfindən “yaşıl enerji zonası” elan edilən işğaldan azad olunan ərazilərimiz böyük aqrar potensiala malik olmaqla, artıq 128 min hektar kənd təsərrüfatına yararlı torpaqlara sahibdir. İndi bizim əsas məqsədimiz həmin ərazidəki digər kənd təsərrüfatına yararlı torpaqları minalardan təmizləyərək xəstəliklərdən azad, rəqəmsal və ən müasir təcrübə və texnologiyalara əsaslanan dayanıqlı kənd təsərrüfatı sistemi qurmaqdır. Təbii ki, biz bu işləri siz iş adamları ilə birgə görmək niyyətindəyik və buna görə sizləri Qarabağda və Şərqi Zəngəzurda investisiya imkanları ilə yaxından tanış olmağa dəvət edirəm. Gözləntimiz odur ki, türk dövlətlərindən olan iş adamları sıx əməkdaşlıq quraraq ölkələrimizin sahib olduğu ən yaxşı təcrübələri və texnologiyaları işğaldan azad olunmuş ərazilərdə tətbiq etsinlər", - deyə nazir əlavə edib.

# Эрдоган: «Армия Азербайджана пришла в Ходжалы…»



Резня в Ходжалы никогда не будет забыта, и Армения будет нести за нее ответственность. Об этом в своих заявлениях для прессы после возвращения из Азербайджана сказал президент Турции Реджеп Тайип Эрдоган.
Турецкий лидер отметил, что около миллиона азербайджанцев были вынуждены бежать из Ходжалы и других городов, прежде всего в Азербайджан.
«Спустя десятилетия Азербайджан потребовал ответа и вернул свои земли», - сказал Эрдоган.
Эрдоган подчеркнул, что Азербайджан вернул свои земли, несмотря на противодействие Минской группы ОБСЕ, в которую входили США, Россия и Франция.
Президент Турции заявил, что армия Азербайджана пришла в Ходжалы не для того, чтобы принести разрушение, а для того, чтобы установить мир и стабильность, и что теперь настало время устойчивого мира и спокойствия в Карабахе под суверенитетом Азербайджана.
«Кто теперь в Ходжалы? Настоящие хозяева Ходжалы... Мы молимся за упокоение душ всех мучеников. Армия Азербайджана вошла в Ходжалы не для того, чтобы принести хаос, кровь и смерть, а чтобы принести мир и спокойствие», - отметил турецкий президент.

# Склады боеприпасов на гражданских объектах в Карабахе

Армянские незаконные вооруженные формирования использовали инфраструктуру гражданского назначения Карабахского региона в военных целях. Об этом говорится в сообщении Минобороны Азербайджана. Ведомство заявляет, что в ходе осмотра заброшенных строений гражданского назначения в Карабахском экономическом районе после антитеррористических мероприятий локального характера было установлено, что эти объекты использовались в качестве складов для боеприпасов. Конфискованы ящики с оружием и боеприпасами, снаряды для гранатометов различных типов, управляемые ракеты противотанкового ракетного комплекса «Корнет», комплекты военной формы



и бронежилеты, говорится в сообщении Минобороны.

# В Ханкенди взрыв на заправочной станции. Баку направил помощь

Администрация президента Азербайджана распространила заявление в связи со взрывом вблизи Ханкенди.
Согласно заявлению, в понедельник, 25 сентября, на автозаправочной станции недалеко от города Ханкенди произошел взрыв. В результате происшествия есть много погибших и пострадавших.
В связи с этим в целях оказания помощи пострадавшим по дороге Агдам - Аскеран - Ханкенди первоначально отправлена машина скорой медицинской помощи с противоожоговыми медицинскими принадлежностями, перевязочными материалами, перчатками, лекарственными препаратами для лечения 200 человек.

# Консорциум TAP о работах по наращиванию поставок газа

Консорциум Трансадриатического трубопровода (TAP) приступил к строительным работам, связанным с подготовкой новых врезок на компрессорной станции для наращивания поставок газа, сообщили Trend в консорциуме TAP AG.
«Эти текущие работы планируется завершить в четвертом квартале 2023 года. После этого начнутся основные строительные работы, за которыми последуют работы по возведению фундамента», - сказали в консорциуме.
Отметим, что консорциум TAP приступил к предварительным работам по наращиванию транспортировки газа. После закрытия первого обязывающего этапа рыночного теста 2021 года TAP запустил первую стадию расширения и выделил 1,2 миллиарда кубометров дополнительной мощности в год в рамках долгосрочных контрактов, которые будут доступны начиная с 2026 года. TAP добавит один компрессорный агрегат (около 15 МВт) к существующей компрессорной станции в Кипои, Греция, и модернизирует там оборудование.

# В Ходжалы продолжают находить арсеналы



В ходе осмотра объектов гражданской инфраструктуры на территории Ходжалинского района был выявлен очередной склад боеприпасов, сообщили в Минобороны. Было изъято большое количество патронов, ручных гранат, минометов, артиллерийских и танковых снарядов различного калибра, а также управляемых ракет и других боеприпасов противотанковых ракетных комплексов.
В этом районе также было обнаружено и изъято значительное количество ящиков с боеприпасами, загруженных на прицепы.

# Более 60 тонн топлива отправлено в Ханкенди

В соответствии с просьбой, озвученной 21 сентября 2023 года на встрече в городе Евлах с представителями армянских жителей, проживающих в Карабахском регионе Азербайджана, об обеспечении горюче-смазочными материалами в первую очередь детских садов, служб скорой медицинской помощи и противопожарных служб, 26 сентября по дороге Агдам – Аскеран – Ханкенди было отправлено 30 тонн бензина, 34 тонны дизельного топлива. Об этом говорится в сообщении Администрации президента Азербайджана.




# Число задержанных в Ереване растет

26 сентября с акций протеста в Ереване в участки доставлены 56 человек, сообщили в полиции армянской столицы.
Полиция в Ереване приступила к задержанию оппозиционных активистов, которые рано утром попытались перекрыть один из центральных проспектов Аршакуняц, требуя отставки премьер-министра Армении Никола Пашиняна. .
Сначала полицейские дали время протестующим на разблокировку проспекта, после чего стали их задерживать. В полицию доставлены около 10 человек.
Также оппозиционеры пытаются перекрыть другие улицы в Ереване, однако полиция сразу начинает задержания.
Они требуют отставки Пашиняна и его правительства.
По данным пресс-службы полиции, во время акций в Ереване задержали в общей сложности 32 человека. Все граждане доставлены в полицию по признакам статьи 182 (невыполнение законного требования представителя власти) УК Армении.



# Доходы и расходы проекта госбюджета - 2024 увеличены на 408 млн. манат

Министерство финансов Азербайджана сообщило, что правительство страны при рассмотрении проекта госбюджета на 2024 год приняло решение об увеличении доходной и расходной частей на 408 млн манатов. Доходы госбюджета на следующий год теперь прогнозируются на уровне 34 млрд 173 млн манатов (+1,2% от прогноза на 2023 год – ИФ), расходы – 36 млрд 763 млн манатов (+0,5% - ИФ). Дефицит госбюджета сохранен на уровне 2 млрд 590 млн манатов.
Ранее сообщалось, что правительство на заседании 23 сентября одобрило проект госбюджета на следующий год и приняло решение представить документ на рассмотрение президента Азербайджана. Доходы госбюджета на следующий год рассчитаны из средней цены на нефть в $60 за баррель.

# К 2030 году девять основных проектов будут способствовать экономическому росту




К 2030 году 9 основных проектов, охватывающих государственный, частный и гражданский секторы, а также 69 областей деятельности, предназначенных для реализации этих проектов, будут способствовать экономическому росту в Азербайджане, повышению конкурентоспособности секторов, облегчению доступа граждан к услугам, а также улучшению предоставления государственных услуг. Об этом сказал заместитель министра экономики Азербайджана Сахиб Алекперов в ходе мероприятия «Искусственный интеллект в экономике нового поколения: вызовы и возможности» на конференции, посвященной «Применению технологий четвертой промышленной революции в национальной экономике» в рамках «Стратегии социально-экономического развития Азербайджанской Республики на 2022-2026 годы». «Это является одной из важнейших задач, стоящих перед нами. Министерство экономики стремится реализовать руководящую концепцию экономического роста, которая включает в себя инновации и инклюзивность, эффективно интегрируя их во все аспекты экономики и общества Азербайджана», - добавил он.

# Macarıstanla iqtisadi əməkdaşlığın genişləndirilməsi müzakirə olunub

Azərbaycan-Macarıstan iqtisadi əməkdaşlığının inkişaf istiqamətləri, qarşılıqlı investisiyaların təşviqi və birgə layihələrin icrası imkanları müzakirə edilib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və Macarıstanın iqtisadi inkişaf naziri Marton Nad arasında videokonfrans formatında görüş keçirilib.




Nazirlikdən bildirilib ki, görüşdə Azərbaycan-Macarıstan iqtisadi-ticarət əlaqələrinin dinamik inkişaf etdiyi və iki ölkə arasında ticarət dövriyyəsinin artdığı qeyd olunub, iş adamları arasında sıx əlaqələrin və keçirilmiş görüşlərin əməkdaşlığın möhkəmlənməsində rolu vurğulanıb. Diqqətə çatdırılıb ki, energetika, sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, qida, əczaçılıq və s. sahələrdə tərəfdaşlığın gücləndirilməsi üçün geniş imkanlar var. Nazir qeyd edib ki, “Azərbaycan İnvestisiya Şirkəti” ASC və Macarıstanın “Hell Energy” şirkəti arasında imzalanmış investisiya müqaviləsinə uyğun olaraq Ələt Azad İqtisadi Zonasında alüminium içki qutularının istehsalı və doldurulması zavodunun inşası səmərəli biznes əməkdaşlığının uğurlu nümunəsidir.

Görüşdə Azərbaycanda özəl və xarici şirkətlərin fəaliyyəti üçün yaradılmış imkanlar və biznes mühiti barədə məlumat verilib, Macarıstan şirkətləri fəal tərəfdaşlığa dəvət edilib.

Tərəflər Azərbaycan və Macarıstan arasında iqtisadi əməkdaşlığın inkişaf istiqamətləri, ticarət əlaqələrinin, qarşılıqlı investisiyaların təşviqi və birgə layihələrin icrası imkanları barədə fikir mübadiləsi apanblar.

# Nağdsız ödənişlərin 3,596 milyon manatı elektron ticarətin payına düşür

Ölkədaxili nağdsız əməliyyatların həcmi keçən ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə artıb. 2023-cü ilin avqust ayı ərzində kartlar vasitəsilə həyata keçirilən ölkədaxili nağdsız ödənişlərin həcmi 4,509 milyon manat təşkil edib. Həyata keçirilən nağdsız ödənişlərin 3,596 milyon manatı elektron ticarətin payına düşür. Qalan məbləğin 905 milyon manatı POS-terminallar, 7 milyon manatı isə özünə xidmət terminalları vasitəsilə gerçəkləşdirilib. İlin əvvəlindən ödəniş kartları ilə nağdsız ölkədaxili əməliyyatların həcmi ölkədaxili kart əməliyyatlarının 54 faizini təşkil edib.



# Yanvar–avqust aylarında banklar 724.2 milyon manat xalis mənfəət əldə ediblər




2023-cü ilin yanvar–avqust aylarında banklar 724.2 milyon manat xalis mənfəət, 1,064 milyon manat məbləğində əməliyyat mənfəəti əldə ediblər.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə bankların xalis və əməliyyat mənfəəti müvafiq olaraq 23 faiz və 25 faiz artıb.

2023-cü ilin 8 ayında banklar tərəfindən 187.4 milyon manat məbləğində mənfəət vergisi ödənilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 38 faiz və ya 51.7 milyon manat daha çoxdur.

# Azərbaycan bankları ilin ilk 8 ayında 724 milyon manat xalis mənfəət əldə ediblər



Azərbaycan bankları 2023-cü ilin ilk səkkiz ayında 2 milyard 279.5 milyon manat faiz gəlirinə qarşı 724.2 milyon manat xalis mənfəət əldə ediblər.

Bildirilir ki, banklar hesabat dövründə 1 milyard 64 mln. manat məbləğində əməliyyat mənfəəti əldə ediblər.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə bankların xalis və əməliyyat mənfəəti müvafiq olaraq 23% və 25% artıb.

2023-cü ilin 8 ayında banklar tərəfindən 187.4 mln. manat məbləğində mənfəət vergisi ödəyiblər ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 38% və ya 51.7 mln. manat daha çoxdur.

# Texnologiyalar parkının rezidentinin əməkdaşlarına hansı vergi güzəşti tətbiq olunur?

Vergi Məcəlləsinin 101.7-ci maddəsinin müddəalarına əsasən, texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar fəaliyyət göstərən sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən vergiödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən əldə edilən aylıq gəlirlərindən gəlir vergisi cari ilin yanvarın 1-dən 3 il müddətində aylıq gəlir 8 min manatadək olduqda 0 faiz, 8 min manatdan çox olan məbləğin 5 faizi, 2026-cı il yanvarın 1-dən 7 il müddətində isə aylıq gəlirin 5 faizi həcmində hesablanaraq ödənilir.

Dövlət Vergi Xidmətindən verilən xəbərdə bildirilir ki, “Sosial sığorta haqqında” Qanunun 14.8-ci maddəsinə əsasən, texnologiyalar parkının rezidenti, onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı, habelə bu şəxslər tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən fiziki şəxslər (əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istisna olmaqla) üzrə 2023-cü il yanvarın 1-dən 10 il müddətində məcburi dövlət sosial sığorta haqqı öz seçimlərindən asılı olaraq minimum aylıq əməkhaqqı məbləğinin dörd misli miqdarından və ya muzdlu işdən əldə edilən gəlirlərdən bu Qanunun 14.3-cü və 14.4-cü maddələrinə uyğun olaraq ödənilir.

Bu maddədə nəzərdə tutulan sığortaolunan hər il yanvar ayının 15-dək öz seçimi barədə yazılı məlumatı sığortaedənə təqdim edir və təqvim ilinin sonunadək həmin seçim dəyişdirilmir. Növbəti təqvim ili üçün sığortaolunan qeyd olunan müddətdə seçimi barədə yazılı məlumatı təqdim etmədikdə, sığortaedən əvvəlki ildə həmin sığortaolunanın seçimini tətbiq edir. Təqvim ili ərzində qeyd edilən kateqoriyadan olan yeni işəgötürülən şəxsə münasibətdə isə müqavilə bağlamaq üçün ərizədə qeyd etdiyi seçim tətbiq edilir.

# Mərkəzi Bank və Dünya Bankı arasında yeni layihənin icrasına başlanılıb

Azərbaycan Mərkəzi Bankı (AMB) və Dünya Bankı arasında “Maliyyə Sektorunun Modernizasiyası Layihəsi 3”-ün icrasına start verilib.

AMB-dən bildirilib ki, layihənin əhatə dairəsinin müəyyənləşdirilməsi və istiqamətlərin dəqiqləşdirilməsi məqsədilə Dünya Bankının mütəxəssislərdən ibarət geniş tərkibli missiyası cari ilin sentyabr ayının son həftəsində müvafiq görüşlərin keçirilməsi üçün Bakı şəhərində səfərdədirlər.

Layihənin əsas məqsədi maliyyə sektorunun nəzarət və tənzimlənməsinin gücləndirilməsi, dövlət maliyyə inklüzivliyi proqramının icrasına dəstək və maliyyə sektorunun monitorinqi üzrə Mərkəzi Banka dəstək göstərməkdən ibarətdir.



# İKTA-da Dünya Bankının ekspertləri ilə görüş keçirilib

THE WORLD BANK

Azərbaycanın telekommunikasiya və poçt xidmətləri üzrə tənzimləyici qurumu, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinin (İKTA) rəhbərliyi ilə “Cənubi Qafqazda rəqəmsal iqtisadiyyatın tətbiqinə dəstək missiyası və inklüzivlik və rəqabətqabiliyyətlilik üçün yüksək sürətli rəqəmsal əlaqənin təmin edilməsinə texniki yardım” layihəsi üzrə Dünya Bankının ekspertləri arasında görüş keçirilib.

Agentlikdən bildirilib ki, Dünya Bankının Avropa və Mərkəzi Asiya üzrə Rəqəmsal inkişaf təcrübəsinin rəhbəri Mişel Roqinin, rəqəmsal inkişaf üzrə baş mütəxəssis Maria Klaudia Paçonun və mütəxəssis Himmat Singh Sandhudanın iştirak etdikləri görüş zamanı İKTA-nın əsas fəaliyyət istiqamətləri, institusional quruculuğu və funksional strukturunun formalaşdırılmasının təşkili, İKTA mütəxəssislərinin bilik və bacarıqlarının artırılması məsələləri müzakirə olunub.

Dünya Bankının ekspertləri beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə xarici tənzimləyici qurumlara dair ümumi təhlil, hüquqi və institusional əsaslar, təşkilati struktur və idarəetmə, tənzimləmə çərçivələrinin icmalı, insan resursları, digər qurumlarla institusional problemlər və maliyyə aspektləri kimi məsələlərdə Tənzimləyici quruma dəstək verməyə hazır olduqlarını bildiriblər. Cari ilin sonuna kimi, Dünya Bankı və İKTA-nın mütəxəssisləri arasında Bankın hazırladığı ilkin hesabata dair ikinci aralıq nəticələrin müzakirəsi, eləcə də Tənzimləyici qurumun inkişaf istiqamətlərinin müəyyən edilməsi üçün paylaşılan ən yaxşı təcrübələrə əsaslanan potensial variantların hazırlanması üzrə silsilə işçi görüşlərin keçirilməsi planlaşdırılır.

# Şuşa şəhəri “2024-cü il üzrə İslam dünyasının mədəniyyət paytaxtı” adına layiq görülüb




Qətərin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası mədəniyyət nazirlərinin 12-ci konfransında iştirakçıların yekdil qərarı ilə Qarabağın incisi Şuşa şəhəri “2024-cü il üzrə İslam dünyasının mədəniyyət paytaxtı” adına layiq görülüb.

Şuşa şəhəri bu il “Türk dünyasının mədəniyyət paytaxtı”dır. 2022-ci il isə Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Azərbaycanda “Şuşa ili” elan olunub.

Bu gün Şuşa şəhəri beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib, böyük mədəniyyət layihələrinə ev sahibliyi edir, buradan dünyaya sülh, birlik və humanizm mesajları verilir. Sübut edirik ki, Şuşa bizim üçün təkcə bir şəhər deyil, həm də əziz və müqəddəs bir yer, dəyərli abidədir.

# “Şahdağ Xeyriyyə” İB xeyriyyə yönümlü təhsil layihəsinin icrasına başlamışdır

“Şahdağ Xeyriyyə” İB 15 sentyabr 2023-cü il tarixindən daxili imkanlar hesabına xeyriyyə yönümlü təhsil layihəsinin icrasına başlamışdır.

Layihə “Məktəblilərin “soft skills” – təməl bacarıqları ilə tanış edilməsi tədbirləri” adlanır. Layihə 1 ay müddətində onlayn formatda icra ediləcək.

Layihənin əsas ideyası müxtəlif məktəblərdən olan şagirdləri onlayn formatda 21-ci əsrin vərdişləri olan yumşaq vərdişlərlə (“soft skills”) – təməl bacarıqlarla tanış etməkdir. Tədbir ZOOM platforması üzərindən aparılacaqdır.

Müasir karyera inkişafına dair məqalələrdə "sərt bacarıqlar" və "yumşaq bacarıqlar" kimi terminlərə tez-tez rast gəlirik. Bu bacarıqlar müasir əmək bazarında vacibdir. Gəncləri bu bacarıqlara məktəb illərindən hazırlamaq lazımdır.

Ənənəvi məktəb təhsili bu məsələlərin həllini nəzərdə tutmur.

Bu məqsədlə belə mühüm bacarıqların sistemli öyrədilməsinə, ilkin mərhələdə şagirdlərin bu haqda maariflənməsinə ehtiyac var. Layihə çərçivəsində bu məsələlərə diqqət ediləcəkdir.

# Əbədiyyət üfüqündə doğan günəş

***Dünya tarixində özünəməxsus iz qoyan və onun səhifələrinin müəyyən qismini şərəflə yazan, yaradan, adını əbədi olaraq həmin səhifələrə qızıl hərflərlə həkk etdirən və xalqının azadlıq, istiqlaliyyət, inkişaf tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, fenomenal yaddaş, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik və qətiyyətli dövlət xadimi kimi düşmüşdür.***

***O, mənsub olduğu və varlığını həmişə uca tutduğu xalqını arxasınca aparmış və taleyüklü məqamlarda doğru yola yönəltmişdir. Ötən illərə nəzər saldıqda onun rəhbərliyi altında Azərbaycan xalqının qazandığı mühüm tarixi nailiyyətlərin şahidi oluruq. Ümummilli liderimizin müdrikliyi, qətiyyəti, uzaqgörənliyi, möhkəm iradəsi, gərgin əməyi, zəngin dövlətçilik təcrübəsi və bacarığı sayəsində respublikamız layiq olduğu mərtəbəyə yüksələ bilmişdir. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə intibah və milli şüurun oyanışı başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır.***

1993-cü ilin yayında ulu öndər Heydər Əliyevin vətənini sevən hər bir azərbaycanlının ürəyində ümid çırağı yandıran "Biz Azərbaycanı bu vəziyyətdən çıxarmağa qadirik" sözlərini bütün xalq bir çağırış kimi qəbul etdi.

1994-cü il iyunun 21-də Prezident sarayında keçirilən müşavirədəki yekun nitqində ulu öndər demişdir: "Biz respublikamızda hüquqi-demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla çox sıx əlaqədə ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni iqtisadiyyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir".

Xalqın təkidli tələbi ilə respublikada siyasi rəhbərliyə qayıdan Heydər Əliyev yeni tarixi şəraitdə mühüm vəzifələrin – Azərbaycan dövlətçiliyinin məhv olmaq təhlükəsinin aradan qaldırılması, dövlət müstəqilliyimizin qorunub saxlanması, əbədi edilməsi, habelə dünyəvi, demokratik dövlət quruculuğunun həyata keçirilməsinin həlli istiqamətində cahanşümul işlərə başladı. Müdrik rəhbərimizin gərgin əməyi, səriştəsi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində tarixən qısa zaman kəsiyində dövlət müstəqilliyimizin dönməz xarakter alması təmin olundu, demokratik hüquqi dövlət quruculuğunun möhkəm təməli qoyuldu, siyasi sabitlik, bunun ardınca isə makroiqtisadi sabitlik bərqərar olundu.



Bütün bunların sayəsində ulu öndər Heydər Əliyev milli dəyərlər zəminində çağdaş dövlətçilik sistemimizin əsaslarını yaradaraq, müstəqilliyimizi əbədi etmişdir. Məhz belə tarixi missiyanı müvəffəqiyyətlə həyata keçirmiş Heydər Əliyev Azərbaycan xalqının siyasi və dövlətçilik şüurunda ümummilli lider zirvəsini fəth etmişdir.

Başqa sözlə, ulu öndər Heydər Əliyev tariximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə bu missiyanı çox böyük uğurla yerinə yetirmişdir. Xalqımız yaxşı bilir ki, müasir Azərbaycan cəmiyyətinin formalaşması və qurulması birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, ümummilli liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük sənət əsəri olan müstəqil, inkişaf etmiş və qalib Azərbaycanın vətəndaşı olmaqdan qürur duyur, ulu öndərə sayğı və məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır" deyən xalqımızın böyük oğlu azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi, öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, ölkəmizin regionda lider dövlətə çevrilməsinə nail olmuşdur.

Bu gün biz hamımız böyük iftixar hissi ilə qeyd edirik ki, Azərbaycan Respublikasının siyasi tarixinin qürurvericiliyi ulu öndər Heydər Əliyevin adı, onun Azərbaycan xalqının bu gününə və gələcəyinə yönəlmiş uğurlu siyasəti ilə bağlıdır.

Sovet hakimiyyəti illərində Heydər Əliyev təxminən 14 ilə yaxın müddət ərzində respublikaya rəhbərlik etmiş və həmin dövrdə onun fəaliyyətinin mühüm istiqamətlərindən birini iqtisadiyyatın səmərəli şəkildə təşkili və idarə edilməsi əsasında respublika əhalisinin maddi və mədəni həyat səviyyəsinin yüksəldilməsi problemi təşkil etmişdir. Məlum olduğu kimi, XX əsrin 70-ci illərinin əvvəllərinədək Azərbaycanın iqtisadi və sosial inkişafında lazımi dönüş yaradılmamış, respublikanın malik olduğu iqtisadi, elmi-texniki və humanitar potensialdan tam dolğun və səmərəli şəkildə istifadə edilməmiş, bu isə istər-istəməz sosial-iqtisadi inkişafın ümumi səviyyəsinin o vaxtkı orta İttifaq göstəricilərindən çox aşağı olması ilə nəticələnmişdir.

Keçmiş SSRİ zamanında geridə qalmış respublikalardan sayılan Azərbaycanda doğma xalqının böyük təəssübkeşi olan Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar aparmağa başladı. Onun hakimiyyətə gəlişi görünməmiş canlanma və yüksəlişə, tikinti-quruculuq işlərinin geniş vüsət almasına səbəb oldu. Heydər Əliyevin gərgin və yorulmaz fəaliyyəti nəticəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahələrində böyük uğurlar əldə edildi.

Bütövlükdə, 1970-1982-ci illər Azərbaycan Respublikası üçün böyük quruculuq illəri, iqtisadi inkişafla yanaşı, sosial sferanın da inkişafında böyük qayğı illəri olmuşdur. 1970-ci illə müqayisədə 1982-ci ildə milli gəlir 2,3 dəfə, sənaye məhsulları 2,2 dəfə, kənd təsərrüfatı məhsulları 2,25 dəfə artmış, 220-dən çox yeni sənaye müəssisəsi fəaliyyətə başlamışdır.

Təkcə 1971-1975-ci illərdə respublikada 64 iri dövlət sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir. Onlardan Bakı Məişət Kondinsionerləri, Sumqayıt Kompressor zavodları, Üst trikotaj fabriki, Xankəndi ayaqqabı fabriki, Gəncədə ət kombinatı və qənnadı fabriki, Lənkəranda və Xudatda konserv müəssisələri və başqalarını göstərmək olar. Çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi. Yeni yaşayış massivləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi. Neft-maşınqayırma sənayesi yenidən quruldu.

1971-1975-ci illərdə Azərbaycan Respublikasının neft-maşınqayırma sənayesi SSRİ neft-mədən avadanlığının 1/3-dən çoxunu, neftçıxarma texnikasının 70 faizdən çoxunu verirdi. SSRİ-də neft çıxarılmasında Azərbaycanın mövqeyi möhkəmləndi.

***Kənd təsərrüfatında texniki təchizat yaxşılaşdı. Baş Mil, Yuxarı Şirvan, Şəmkir kanalları çəkildi, Sərsəng və Şəmkir su anbarları yaradıldı. Tərtərçay və Yuxarı Xanbulançay su təsərrüfatı kompleksləri, Araz, Arpaçay, Sirab dəryaçaları, Baş Mil və Lənkəran kanalları istifadəyə verildi. Respublika üzüm istehsalına görə birinci yerə, pambıq toplanışında dördüncü yerə, barama istehsalına görə ikinci yerə çıxdı. Belə uğurlara dəlalət edən faktları çox göstərmək olar.***

Sənayenin inkişaf səviyyəsinə görə respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsalla bilavasitə bağlı olan elmi tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Mütərəqqi texnologiyaların və elmi-texniki nailiyyətlərin istehsalata tətbiqi sahəsində Azərbaycan sovetlər məkanında qabaqcıl mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyəti əvvəlki dövrlərlə nisbətdə müqayisə olunmayacaq səviyyədə idi. Azərbaycan bir çox mühüm istehsal sahələrinə görə Sovet İttifaqında aparıcı yerlərdən birini tutdu. 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. 1970-1985-ci illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi.

Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə (1969-1982) sosial-siyasi və hüquqi sahədə əldə edilən nailiyyətlərdən bəhs etməmək olmaz. Bu illər ərzində Aşıq Alının və Aşıq Ələsgərin yubileylərinin qeyd edilməsi və N.Gəncəvi irsinin yenidən öyrənilməsi haqqında qərar verildi.

**Şuşada Vaqifin məqbərəsi inşa edildi. H.Cavidin nəşi İrkutskdan gətirilərək Naxçıvanda dəfn edildi. Bakı şəhəri "Lenin" ordeni ilə təltif olundu.**

Məhz bu inkişaf sayəsində Azərbaycan keçmiş SSRİ-nin ən geridə qalan respublikalarından ən qabaqcılına çevrildi.

XX əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərində Azərbaycanın ümumi yüksəlişi fonunda xalqımızın tarixi keçmişinə maraq artdı, bu sahədə də oyanış başladı. Hələ o zaman ermənilərin sərsəm millətçi niyyətlərini bilən və bunun qarşısını hər vəchlə almağı bacaran dahi liderimiz Kəlbəcərə "Murov yolu" nu çəkməklə Kəlbəcərin iqtisadi mövqeyini möhkəmləndirərək erməni separatçılarının niyyətlərini puça cıxardı. 1977-ci ildə ermənilərin Qarabağ məsələsinə dair yenidən qaldırdıqları ərazi iddialarının qarşısı alındı.

**(davamı 7-ci səhifədə)**

## TDT-nin Kənd Təsərrüfatı Nazirlərinin II Toplantısının Yekun Bəyannaməsi qəbul olunub



Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov və TDT Baş katbi Kubanıçbek Ömüralıyevin sədrlik etdiyi toplantıya quruma üzv olan və müşahidəçi qismində dəvət edilən ölkələrin kənd təsərrüfatı nazirləri və nazir müavinləri qatılıblar.

Tədbirdə çıxış edən Məcnun Məmmədov bildirib ki, 2009-cu il Naxçıvan Zirvə görüşündən başlayaraq Türk Dövlətləri Təşkilatı uzun bir inkişaf yolu keçib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin TDT ölkələri ilə bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsini Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biri elan etdiyini deyən nazir qeyd edib ki, bu gün TDT 160 milyona yaxın insanın yaşadığı böyük bir coğrafiyanı əhatə edən, qlobal miqyasda tanınan güclü təşkilata çevrilib.

Bildirilib ki, TDT qlobal kənd təsərrüfatı torpaq ehtiyatlarında 6,1%, o cümlədən əkin sahələrində 3,9%, kənd təsərrüfatı məhsullarının qlobal istehsalında 2,2%, kənd təsərrüfatı və emal məhsullarının ixracında 2% paya malikdir.

Toplantı iştirakçıları qeyd ediblər ki, dünya ölkələrinin iqlim dəyişikliyi, su və torpaq ehtiyatlarının azalması, yüksək səviyyəli urbanizasiya və digər problemlərlə üzləşdiyi bir vaxtda türk dövlətləri də bu çağırışlara hazır olmalı, yeni texnologiya və həllərin tətbiqi istiqamətində təcrübə mübadiləsi aparmaqla məhsuldarlığı artırmağa və dayanıqlı inkişafa nail olmalıdır.

Nazirlər Toplantısında iştirakçı dövlətlər arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı maraq doğuran layihələri reallaşdırmaq imkanları müzakirə olunub.

Toplantıda çıxış edən natiqlər türk dövlətlərinin kənd təsərrüfatının bütün istiqamətləri üzrə geniş əməkdaşlıq potensialının olduğunu bildiriblər.

## Azərbaycan kənd təsərrüfatı məhsullarının ixracını diversifikasiyalaşdırmağı hədəfləyir

"Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixracının təqribən 60 faizi MDB ölkələrinin payına düşür, lakin əsas məqsəd kənd təsərrüfatı və emal məhsulları ixracının diversifikasiyasından ibarətdir".

Bunu İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktorunun müşaviri Tural Hacılı II Türk Dövlətləri Aqrobiznes Forumunda deyib.




"Agentlik ixracın genişləndirilməsi üçün Avropa bazarı, Fars körfəzi və Şərqi Asiya ölkələrinə yönəlib. Mümkün diversifikasiya üçün bir sıra yeni mexanizmlər hazırlıq mərhələsindədir", - o deyib.

T.Hacılı Azərbaycandan 326 adda kənd təsərrüfatı məhsulunun ixrac olunduğunu, ixrac bazarlarının sayının isə 88 olduğunu vurğulayıb.

"Son üç il ərzində Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixracında mütəmadi artım müşahidə olunur", - o deyib.

## Avqustda bankların kredit portfeli artıb




Avqust ayında bankların kredit portfeli 2.1 faiz və ya 442.2 milyon manat artaraq 21 milyard 814.2 milyon manat olub.

Azərbaycan Mərkəzi Bankından bildirilir ki, kredit portfelinin strukturu: biznes kreditləri – 54.2 faiz (11 milyard 821.8 milyon manat); istehlak kreditləri – 29.9 faiz (6 milyard 532.5 milyon manat) və ipoteka kreditləri – 15.9 faiz (3 milyard 459.9 milyon manat).

Ay ərzində biznes kreditləri mütləq ifadədə 199.1 milyon manat, istehlak kreditləri 156.5 milyon manat, ipoteka kreditləri isə 86.6 milyon manat artıb.

Cəmi kredit portfelində (BOKT-lər və kredit ittifaqları daxil olmaqla) vaxtı keçmiş kreditlərin payı əvvəlki ilin müvafiq dövrünə nəzərən 1 faiz bəndi azalaraq 2.4 faiz təşkil edib.

Fiziki şəxslərin əmanət portfelinin 54.5 faizi (6 milyard 691.5 milyon manat) müddətli əmanətlərdən ibarətdir.

(əvvəli 6-cı səhifədə)

1978-ci il aprelin 21-də qəbul edilən Azərbaycan SSR-in üçüncü konstitusiyasının 73-cü maddəsinə Heydər Əliyevin iradəsi nəticəsində Azərbaycan dilinin dövlət dili olması əlavə edildi.

Məhz həmin illərdə bugünkü müstəqilliyimizin təməli qoyuldu. Milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı. Milli kadrların yaradılması istiqamətində qətiyyətli addımlar atıldı. Hər il yüzlərlə azərbaycanlı gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin 170 ən qabaqcıl ali məktəblərinə göndərildi. O, hərbi təhsilin inkişafına xüsusi diqqət yetirirdi. Bu məqsədlə1971-ci ildə "İxtisaslaşdırılmış internat məktəbi"nin yanında C.Naxçıvanski adına hərbi lisey yaradılmışdı. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahat olan Heydər Əliyev gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü.

Hakimiyyətdə olduğu illər ərzində ciddi kadr dəyişiklikləri apardı, respublikada idarəçilik sistemini xeyli möhkəmləndirdi. Artıq dövlət vəzifələrində çalışanların əksəriyyəti azərbaycanlılar idi. Sovet hakimiyyəti dövründə ilk dəfə olaraq vəzifədən sui-istifadə, rüşvətxorluq, korrupsiya kimi halların olduğunu və onların aradan qaldırılmasının vacibliyini elan etdi və bu kimi mənfi hallarla qəti mübarizəyə başladı. Qanunverici orqanlara ən bacarıqlı və layiqli adamların seçilməsinə imkan yaratdı. Bu orqanların işi xeyli fəallaşdı, yeni komissiyalar formalaşdırıldı və onların səmərəli fəaliyyəti təmin edildi. 1970-1982-ci illər respublikamızda quruculuq salnaməsinin parlaq dövrü kimi tarixə düşdü. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı.

***Azərbaycanın Sovet dövründə yüksəlməsinin ən uğurlu nəticəsi o oldu ki, həmin dövrdə əldə edilən iqtisadi, elmi-texniki, mədəni inkişaf respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratdı.***

1991-ci ilin oktyabrında özünün dövlət müstəqilliyini elan edərkən respublikamız əslində siyasi-hərbi böhranla yanaşı, həm də dərin sosial-iqtisadi böhranla üz-üzə qalmışdır. Ölkənin ictimai-siyasi həyatında baş verən mürəkkəb proseslər, iqtisadiyyatda idarəetmə və istehsal intizamının pozulması, Azərbaycanın məcburən cəlb olunduğu müharibə və bunun nəticəsində ayrı-ayrı bölgələrin bir-birinin ardınca Ermənistanın silahlı qüvvələri tərəfindən zəbt edilməsi, qaçqın və məcburi köçkünlər ordusunun gündən-günə artması, müxtəlif şəxslərə və siyasi qruplaşmalara tabe olan silahlı dəstələrin hakimiyyət uğrunda mübarizəyə cəlb edilməsi, separatçılıq meyillərinin güclənməsi, dövlət çevrilişinə cəhdlərin bir-birini əvəzləməsi iqtisadi inkişafa ciddi zərbə vurmuş, məhsul istehsalını kəskin surətdə azaltmış, əhalinin rifahının nəzərəçarpacaq dərəcədə pisləşməsinə səbəb olmuşdur. Nəticədə 1993-cü ildə ÜDM-in həcmi həmin göstəricinin 1988-ci ildəki səviyyəsinin cəmi 60 faizini təşkil etmişdir. 1992-1994-cü illər ərzində real daxili məcmu məhsul ildə orta hesabla 20 faiz, milli gəlir 50 faiz azalmışdı; 1991-ci ildən etibarən hər il dövlət büdcəsi böyük kəsirlə formalaşdığından, yalnız Mərkəzi Bankın yeni kreditləri hesabına maliyyələşdirilirdi. 1993-cü ildə büdcə kəsiri 23,8 milyon manat təşkil etmişdi ki, bu da ÜDM-in 14,4 faizinə bərabər idi; həmin il idxal və ixracın həcmi 50 faizdən çox azalmış, tədiyə balansında mənfi saldo 23 milyon dollar təşkil etmişdir. 1990-cı illə müqayisədə isə üç ildə ÜDM-in real həcmi iki dəfə azalmış, sənaye istehsalı 63 faiz, kənd təsərrüfatı istehsalı 47 faiz aşağı düşmüş, sürətli inflyasiya prosesi nəticəsində əhalinin həyat səviyyəsi 3,6 dəfə aşağı enmişdir. Azərbaycan xalqı öz xilasını Heydər Əliyev şəxsiyyətində görərək, böyük ümidlərdən qaynaqlanan bir təkidlə onu əvvəllər də qurucusu olduğu respublikaya yenidən başçılıq etməyə dəvət etdi. 1993-cü il iyun ayının 15-i xalqımız üçün qurtuluş günü oldu.

Heydər Əliyev uzaqgörən və ağıllı siyasətçi kimi nəyi nə zaman deməyi, hansı addımı nə vaxt atmağı bir zərgər dəqiqliyi ilə bacarırdı. Ulu öndər belə qeyd edirdi: **"Biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun".**

Ulu öndər, eyni zamanda həm keçmişin ağır mirası ilə çarpışır, həm də ölkənin gələcəyi üçün əlindən gələni edirdi.

Hakimiyyəti dövründə ulu öndərin ən vacib saydığı vəzifələrdən birincisi ordu quruculuğu idi. Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi Azərbaycan ordusunun formalaşdırılması, döyüş bacarıqları yüksək və olkəmizin sərhədlərini, xalqımızın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Müstəqilliyin ilk illərində tüğyan edən iqtisadi tənəzzülün, Azərbaycanın şimal və cənubunda insanları vətəndaş müharibəsinə cəlb etmək istəyən ekstremist qüvvələrin, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin qarşısının alınması, dövlətçilik ənənələrinin və ölkədə sabitliyin bərpası və qorunması məqsədilə Heydər Əliyevin atdığı qətiyyətli addımlar hər bir vətəndaşın həyatında hiss olundu. Azərbaycanla Ermənistan arasında 1994-cü ildə atəşkəsin əldə olunmasına, "Əsrin müqaviləsi"nin imzalanmasına, 1995-ci ildə konstitusiyanın qəbul edilməsinə, şərqlə qərbi birləşdirən qədim İpək Yolunun bərpasına və digər mühüm və əhəmiyyətli layihələrin həyata keçirilməsinə nail olundu.



*Kadr hazırlığı idarəsinin rəisi E.Behbudova*

**Heydər Əliyevin iqtisadi baxışlarında bir-birini tamamlayan iki məqam nəzərə çarpır:**

*1) iqtisadiyyatın bütün sahələrində islahatlar aparmaq və bu islahatlar vasitəsilə ölkə iqtisadiyyatını inkişaf etdirmək;*

*2) mövcud iqtisadi potensialdan istifadənin səmərəsini təxirə salmadan yüksəltmək, onun dağılmasına yol verməmək və bu potensialı bütün Azərbaycan xalqının sərvəti kimi, respublikamızın vətəndaşlarının, əhalinin bütün təbəqələrinin həyat tərzinin yaxşılaşdırılmasına yönəltmək.*

Məhz bu baxımdan müstəqillik şəraitində, heç kimə ümid olmadan iqtisadiyyatımızı düzgün inkişaf etdirməyi, öz sərvətlərimizdən səmərəli istifadə etməklə dövlətçiliyimizi möhkəmləndirməyi, özü də təkcə siyasi-mənəvi deyil, həm də maddi nəticələr əldə etməklə insanların həyat səviyyəsini yaxşılaşdırmağı əsas şərt sayan Heydər Əliyev deyirdi: **"Müstəqillik ona görədir ki, biz öz taleyimizin sahibi olaq, öz sərvətlərimizin sahibi olaq və bu sərvətlərdən istifadə edərək xalqımız daha yaxşı yaşasın".**

Azərbaycanın iqtisadi tərəqqisinin dayaq sütunlarını müəyyən edən Heydər Əliyev ölkənin yeni makroiqtisadi siyasətinin şaxələrini dərinliklərinə qədər məharətlə tədqiq edərək, fundamental iqtisadi model hazırladı. Bu model çoxistiqamətli və uzunmüddətli dinamik inkişafın əsasını təşkil edən zəngin bir konsepsiya idi. Bu mükəmməl inkişaf konsepsiyasının həyata keçirilməsi dövlət suverenliyini bərpa edən Azərbaycanda demokratik dövlət quruculuğu və azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasına, yeni iqtisadi dövrün tələblərinə uyğun təsərrüfat sisteminin yaradılmasına və sıçrayışlı inkişafın təmin olunmasına, kompleks islahatların reallaşmasına möhkəm əsas yaratdı.

*Qeyd edilənlərə yekun vuraraq belə bir nəticəyə gəlmək olar ki, ulu öndərin iqtisadi siyasət strategiyası:*

***1) sabitləşdirmə;***

***2) islahatlaşdırma;***

***3) dünya iqtisadi inteqrasiyasına qoşulma;***

***4) sosial-iqtisadi inkişaf və bunların da nəticəsində nail olunmuş xalqın rifahının yüksəldilməsi cəmiyyət həyatının bütün sahələrinə dair düşünülmüş, genişmiqyaslı radikal islahatların müvəffəqiyyətlə həyata keçirilməsi sayəsində artıq 1996-cı ildən etibarən yeni Azərbaycan quruculuğunun, o cümlədən milli iqtisadiyyatın sürətli inkişaf və yüksəliş dövrü başlanmışdır.***

Bir məsələni də xüsusi vurğulamaq yerinə düşər ki, ulu öndər həmişə nominal islahatların, yəni islahat xatirinə islahatların aparılmasının əleyhinə olub. İslahatların keçirildiyi bir dövrdə mövcud iqtisadi strukturların və inzibati-amirlik metodlarının olduğu kimi saxlanması onun iqtisadi baxışlar sistemində yolverilməz hesab edilirdi. Əksinə, o, iqtisadi islahatlar həyata keçirilərkən iqtisadi qanunların və dünya təcrübəsinin əsas götürülməsini, islahatların sistemli, kompleks şəkildə aparılmasını və sosial yönümlü olmasının zəruriliyini vurğulayırdı.

Heydər Əliyevin konkret situasiyaya və ölkənin iqtisadi "landşaftına" hesablanmış iqtisadi konsepsiyasına əsasən islahatların üç mərhələdə həyata keçirilməsi daha məqsədəuyğun hesab edilmişdir: birinci mərhələdə güclü dövlət tənzimlənməsi ilə böhrandan çıxmaq, ikinci mərhələdə iqtisadiyyatın sabitliyini təmin etmək, üçüncü mərhələdə isə iqtisadiyyatın dirçəlişinə və yüksək xətlə inkişafına nail olmaq lazımdır.

Beləliklə, Heydər Əliyev islahatları dünya təcrübəsində müşahidə etdiyimiz bütün proqramlardan bir əsas əlaməti ilə fərqlənir: onun islahatlar keçirdiyi ölkə dörd bir tərəfdən blokada, müharibə və sosial sarsıntılar (qaçqınlar problemi) içərisində olmasına baxmayaraq, Azərbaycanı 1993-cü ildən 1997-ci ilin iqtisadi artımına ardıcıl siyasi və iqtisadi addımlar həyata keçirməklə gətirmişdir.

Keçid dövrünün Azərbaycan üçün xarakterik xüsusiyyətləri nəzərə alınmaqla iqtisadi islahatların aparılması onun müvəffəqiyyətini təmin etmiş və burada Heydər Əliyev dühasının əvəzolunmaz rolu vardır. Belə ki, ilk növbədə, onun fövqəladə zəhməti sayəsində bağlanan neft sazişləri iqtisadiyyatın bütün sahələrinin dirçəlməsində əhəmiyyətli rol oynadı.

Çox böyük əhəmiyyəti olan beynəlxalq kontraktların bağlanması, dünya ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsi, Azərbaycana investisiya axınının güclənməsi, iqtisadi inteqrasiyanın dərinləşməsi və s. məhz Heydər Əliyevin müdrik daxili və xarici siyasətinin məntiqi nəticəsi kimi mümkün olmuşdur. Bütün bunlar Azərbaycanın sabahına inam yaratmış, respublikamızın ümdə problemlərinin həllinə, əhalinin rifahının yüksələcəyinə böyük ümidlər doğurmuş, xalqın iqtisadi fəallığının artmasına təsir etmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyən edilmiş demokratik, dünyəvi dövlət quruculuğu və sosial yönümlü bazar prinsiplərinə əsaslanan sosial-iqtisadi inkişaf siyasəti artıq iyirmi ilə yaxındır ki, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir.

Bu gün ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması, yeni iş yerlərinin getdikcə artması və yoxsulluğun əhəmiyyətli dərəcədə azaldılması, misilsiz tarixi qələbəmiz - 30 il işğal altında olan torpaqlarımızın işğaldan azad edilməsi dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi siyasətin nəticəsidir. Yürüdülən uğurlu, qətiyyətli siyasət, həyata keçirilən makroiqtisadi layihələr Azərbaycan iqtisadiyyatının daha da yüksələcəyindən xəbər verir.

Ayrı-ayrı dövlət proqramlarında, Böyük Qayıdış strategiyasında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi Azərbaycanın sosial-iqtisadi inkişafında vacib mərhələ olmaqla, ölkənin iqtisadi inkişafında və əhalinin rifah halının yaxşılaşdırılmasında getdikcə mühüm rol oynayır. Biz Azərbaycanın siyasi, iqtisadi və mədəni inkişafında Heydər Əliyev imzası qoymuş ümummilli liderimizin, bu imzanı uğurla davam etdirən və yeni sistemə çevirən Prezident İlham Əliyev cənablarının siyasəti ilə gələcəyə uğurla və inamla addımlayırıq.

Ümummilli liderimizin dediyi kimi: **"Biz azadıq, biz müstəqilik, biz heç kəsdən asılı deyilik. Biz özümüz öz taleyimizin sahibiyik və öz taleyimizi yalnız biz həll edə bilərik".**

# Enerji gəlirlərinin artması səbəbindən Azərbaycanın tədiyə balansında müsbət saldo davam edir

Bu barədə iqtisadçı-ekspert Vüqar Bayramov deyib.

O bildirib ki, sentyabrın əvvəllərində Azərbaycanda hərraclarda dollara tələb azalsa da, sonradan yenidən yüksəlib. Sonuncu hərracda 45,5 milyon dollarlıq tələb yaranıb. Qeyd edək ki, öncəki hərracda bu rəqəm 26,6 milyon dollar idi. 2023-cü ilin son aylarında da regionda dollara tələbin artacağı gözlənilir.



"Dollara tələbin artması kontekstində manatın məzənnəsinin necə dəyişməsinə gəldikdə isə qeyd etmək lazımdır ki, daha çox enerji gəlirlərimizin artması səbəbindən Azərbaycanın tədiyə balansında müsbət saldo davam edir. Bununla belə, regional və eləcə də qlobal valyuta bazarındakı dəyişikliklər psixoloji təsirlərini qoruyub saxlayır. Amma Azərbaycan hələlik üzən məzənnə rejiminə keçmədiyi üçün valyuta bazarındakı tarazlıq Mərkəzi Bankın qərarları ilə müəyyənləşməkdə davam edir", - deyə V.Bayramov qeyd edib.

Dolların dünya bazarında yenidən möhkəmləndiyini deyən ekspert diqqətə çatdırıb ki, ABŞ pulu avroya nisbətən sadəcə son 1 ayda 4 faizə yaxın dəyər qazanıb. Həmin müddətdə Rusiya rublu da dollar qarşısında 2 faiz dəyərsizləşib. Qardaş Türkiyədə isə 1 dollar almaq üçün 27 lirədən daha çox milli pul ödəmək lazımdır. Dolların möhkəmlənməsi ABŞ iqtisadiyyatı ilə bağlı pozitiv rəqəmlər və eləcə də FED-in davamlı güclənmə siyasəti ilə bağlıdır. Avropa Mərkəzi Bankının son qərarları da avronun məzənnəsinə təsirsiz ötüşməyib.

# Muzdlu işləyənlərin təxminən 50 faizi özəl sektorda çalışır

"Son beş il ərzində Azərbaycanın dövlət sektorunda muzdlu işləyənlərin sayı cəmi 20 min artmışdırsa, özəl sektorda bu artım 200 mini keçib".

Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Rəqabət Məcəlləsinin layihəsinə həsr olunmuş ictimai dinləmədə çıxışı zamanı deyib.



**O bildirib:** "Azərbaycanda bazar iqtisadiyyatına keçidə Ulu Öndər tərəfindən 1996-cı ildən start verilib. Ötən dövr ərzində dövlət əmlakının özəlləşdirilməsi, torpaq islahatı Azərbaycanda özəl sektorun inkişafına çox böyük bir dəstək verib. Hazırda Azərbaycan iqtisadiyyatında əlavə dəyərin formalaşmasında özəl sektorun payı 83 faizdən çoxdur. Bu gün Azərbaycanda muzdlu işləyənlərin təxminən 50 faizi artıq özəl sektorda çalışır. Son illərdə Azərbaycan iqtisadiyyatında aparılan şəffaflıq, iqtisadi islahatlar dövlətin bu istiqamətdə inzibati metodlardan daha çox tənzim metoduna keçməsi sahibkarlar arasında çox böyük bir ruh yüksəkliyi, eyni zamanda, iqtisadiyyatın inkişafında bir aktivlik yaradıb. Bu, həm vergi toplamalarında, həm investisiyalarda, həm sahibkarlıq mühitinin daha da inkişaf etməsinə imkan yaradıb".

# Aİ ölkələrinə metanol ixracı 26,6 faiz artıb




Avropa İttifaqı (Aİ) ölkələri 2023-cü ilin yanvar-iyul aylarında Azərbaycandan 47,891 milyon avro dəyərində 133,82 min ton metanol idxal edib.

Bu barədə Aİ-nin Statistika İdarəsinin (Avrostat) məlumatında qeyd olunub.

Statistik məlumatlara əsasən, bu il iyul ayında Azərbaycan Aİ ölkələrinə 5,281 milyon avro dəyərində 20,898 min ton metanol ixrac edib ki, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 26,6 faiz çoxdur.

Yanvar-iyul aylarında metanolun əsas idxalçılarının beşliyində aşağıdakı ölkələr yer alıb: Rumıniya 49,431 min ton, İtaliya 38,604 min ton, Niderland 34,823 min ton, İspaniya 7,156 min ton, Finlandiya 1,999 min ton.

Hesabata əsasən, 2022-ci ildə Aİ ölkələri Azərbaycandan 104,446 milyon avro dəyərində 261,723 min ton metanol idxal edib. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,1 dəfə çoxdur.

# Ödəniş kartlarının sayı artıb



Banklar və "Azərpoçt" MMC sistemləri üzrə avqust ayının sonunda dövriyyədə olan ödəniş kartlarının sayı ötən aya nəzərən 323 min ədəd artaraq 15 milyon 669 min ədəd təşkil edib.

Keçən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 20.2 faiz artıb. Ödəniş kartlarında artım debet kartları üzrə 20 faiz, kredit kartları üzrə 21.4 faiz təşkil edib. Ötən ilin müvafiq dövrünə nəzərən əməkhaqqı kartlarının sayı 65 min, kredit kartları 362 min, digər kartlar isə 2.1 milyon ədəd artıb.

*Qarabağ uğrunda döyüşən qəhrəmanları unutmayaq!*

# Şahlar Şükürov (1952-1990)



*Azərbaycanın Milli Qəhrəmanı, Qarabağ müharibəsi şəhidi Şahlar Əvəz oğlu Şükürov 17 may 1952-ci ildə Kəlbəcər rayonunun Zülfüqarlı kəndində anadan olmuşdur.* Orta məktəbi əla qiymətlərlə bitirən Şahlar Şükürov Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna qəbul olunur və 1972-ci ildə oranı əla qiymətlərlə başa vurur. 1972-ci ildə Ş.Şükürov Sovet Ordusu sıralarında hərbi xidmətə çağırılır. Ordu sıralarından tərxis olunduqdan sonra Bakıdakı islah-əmək müəssisələrinin birində işləmişdir. Sonra fəaliyyətini Ucar rayon Daxili işlər şöbəsində davam etdirmişdir. Sonra Rostov Milis Akademiyasında təhsil alır. Əmək fəaliyyətinə Ucar rayon Milis şöbəsində əməliyyat rəisi kimi başlayır. 38 yaşında mayor rütbəsinə yüksəlir və Zərdab rayon Milis şöbəsində rəis müavini təyin edilir.

**O, tez-tez döyüş bölgələrinə gedər, torpaqlarımızın bütövlüyü uğrunda qaynar döyüşlərə atılardı. 1990-cı il 11 iyulda Tərtər-Kəlbəcər yolu ilə hərəkət edən maşın karvanı erməni işğalçılarının hücumuna məruz qalır. Burada son nəfəsinədək vuruşan Şahlar qəhrəmancasına həlak olur.**

Şahlar Şükürov ailəli idi, iki övladı yadigar qaldı.

**Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə Şükürov Şahlar Əvəz oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.**

Kəlbəcər rayonunun Zülfüqarlı kəndində dəfn edilib.

Zərdab rayonunda adına küçə var. Buradakı məktəblərdən biri onun adını daşıyır. Şahlar Şükürova həsr olunmuş "Bir elin Şahları" adlı film də çəkilmişdir.

# Avropanın ən çirkli havası olan şəhərlərinin adları açıqlanıb



Çirkləndirilmiş hava sağlamlığa təsir edir və ciddi problemlərə səbəb ola bilər. Məlum olduğu kimi, avropalıların təxminən 98 faizi belə hava ilə nəfəs almağa məcburdur.

Bu barədə "DW" aparılan tədqiqata istinadla məlumat yayıb. Tədqiqatların nəticələri göstərib ki, Avropada yalnız dörd ölkədə - İsveç, İslandiya, Finlandiya və Norveçdə göstəricilər normaya yaxındır.

Ekspertlər qeyd edirlər ki, planetin digər yerləri, misal üçün, Hindistan ilə müqayisədə Avropada havanın keyfiyyəti daha yüksəkdir, lakin buna baxmayaraq, onun səviyyəsi orqanizmin vəziyyətinə ziyan vura bilər. İndi ən pis göstəricilər Po çayı (İtaliya) vadisində qeydə alınıb. Oxşar vəziyyət Barselona (İspaniya), Paris (Fransa) və Afinada (Yunanıstan) müşahidə olunub.

# "2024-cü ildə də Rusiyada inflyasiya yüksək səviyyədə qalacaq"



Rusiyanın iqtisadi inkişaf naziri Maksim Reşetnikov Rusiyada inflyasiyanın 2024-cü ildə də yüksək səviyyədə qalacağını bildirib.

Rusiyanın iqtisadi inkişaf naziri Maksim Reşetnikov Rusiya Federasiya Şurasındakı çıxışında ölkəsindəki inflyasiya tendensiyası ilə bağlı qiymətləndirmələr edib.

Marja xəbər verir ki, Rusiyada illik inflyasiyanın 7,5% olduğunu qeyd edən Reşetnikov, "Gələn il orta illik inflyasiya 7,2 faiz olacaq. Biz 2024-cü ilin dekabrında inflyasiyanın illik 4,5 faizə düşəcəyini gözləyirik. Lakin gələn il ərzində inflyasiya yüksək səviyyədə qalacaq", - deyə bildirib.

Rusiya Mərkəzi Bankı rublun ucuzlaşması ilə artan yüksək inflyasiya təhlükəsi ilə əlaqədar avqustun 15-də uçot dərəcəsini 8,5 faizdən 12 faizə, sentyabrın 15-də isə 13 faizə qaldırıb.

Rusiya Mərkəzi Bankının sədri Elvira Nabiullina inflyasiyanın yavaşlamasının davamlı olduğuna əmin olana qədər faiz dərəcələrini uzun müddət yüksək səviyyədə saxlayacaqlarını bildirib.

# İnvestorlar səhmlərdən sürətlə xilas olurlar



Bank of America bildirir ki, ABŞ-da uzunmüddətli yüksək faiz dərəcələrinin mümkünlüyü tənəzzül riskini artırdığından investorlar səhmlərdən sürətlə xilas olurlar.

Sentyabrın 20-dək olan həftədə qlobal səhm fondları 16,9 milyard dollar itirib. Bank of Americanın strateqi Maykl Hartnett xəbərdarlıq edib ki, yüksək faiz dərəcələrinin uzun müddət saxlanılması səbəbindən iqtisadiyyat "sərt eniş", maliyyə bazarları isə böhranla üzləşə bilər. Bunun siqnalları işsizliyin, şəxsi əmanətlərin və borcların artmasıdır.

Bu il S&P 500 indeksinin 13% artmasına baxmayaraq, xüsusən də Federal Ehtiyatlar Sisteminin (FED) uçot dərəcəsini yüksək səviyyədə saxlamaq mümkünlüyü barədə açıqlamasından sonra ekspertlər gələcəyə şübhə ilə yanaşırlar.

# "Beynəlxalq Altsheymer Xəstəliyi barədə Məlumatlandırma Günü"nə həsr edilmiş Elmi Konfrans keçirilib



*23 sentyabr 2023-cü il tarixində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin, Mərkəzi Gömrük Hospitalının və "Dayaq ZN" Patronaj Xidmətinin birgə təşkilatçılığı ilə "Beynəlxalq Altsheymer Xəstəliyi barədə Məlumatlandırma Günü"nə həsr edilmiş "Demensiyaların müasir psixososial xüsusiyyətləri" mövzusunda elmi konfrans keçirilib.*

Rəsmi açılış hissəsində Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev konfrans iştirakçılarını salamlayaraq, demensiyanın vacib ictimai səhiyyə problemi olduğunu qeyd edib. O, profilaktikanın vacib əhəmiyyət kəsb etdiyini vurğulayaraq maarifləndirici tədbirlərin mütəxəssislərarası təcrübə mübadiləsinin təmin edilməsində mühüm rola malik olduğunu qeyd edib.



Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini, t.e.d., əməkdar həkim Rəşad Mahmudov da konfransın rəsmi hissəsində çıxış edərək, Mərkəzi Gömrük Hospitalında mütəmadi olaraq həyata keçirilən davamlı tibbi təhsil tədbirləri barədə məlumat verib.

Konfransın rəsmi açılış hissəsində həmçinin Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Psixatriya kafedrasının müdiri, t.e.d., professor, Səhiyyə Nazirliyinin Ekspert mütəxəssisi Teymur Qafarov və Mediart Psixi Sağlamlıq Mərkəzinin baş həkimi, psixiatr, t.e.d. Araz Əliquliyev də çıxış edərək, mövzu ilə əlaqəli fikirlərini bölüşüblər və Tibbi Xidmət İdarəsi tərəfindən keçirilən tədbirləri yüksək qiymətləndiriblər.

100-ə yaxın iştirakçının əyani, 300-ə yaxın iştirakçının distant iştirak etdiyi konfransda yüksəkixtisaslı mütəxəssislər tərəfindən mövzu ilə əlaqəli təqdimatlar edilib və auditoriyanı maraqlandıran suallar cavablandırılıb.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Davamlı tibbi təhsil üzrə elm və tədris tədbirlərinin akkreditasiya Qaydaları" əsasında akkreditasiya olunaraq, 6 DTT balı ilə qiymətləndirilmiş konfrans Mərkəzi Gömrük Hospitalının rəsmi facebook səhifəsindən də canlı yayımlanıb.

**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilarə Zamanova**

# Hindistan Ermənistanda hərbi baza açmağı planlaşdırır

Bu haqda Hindistan-Ermənistan Dostluq Cəmiyyətinin sədri Rananjay Anand "X" (Twitter) hesabında yazıb: **"Hindistan və Ermənistan arasında "qazan-qazan prinsipi əsasında strateji tərəfdaşlıq üçün" Ermənistanda Hindistan hərbi hava qüvvələri bazasının yaradılması istiqamətində işləməyin vaxtıdır!"**, - deyə o, qeyd edib.




**Azəri Light və Brent markalı neftin bir barelinin 21 – 27 sentyabr tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə «Azərişıq» ASC-nin sədr müavini Ramil Yusifova qaynatası
**VAHİD AĞAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə «Azərişıq» ASC-nin sədr müavini Ramil Yusifova qaynatası
**VAHİD AĞAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500